# Yalçın Rəfiyev: İqlim dəyişikliklərinə qarşı vəsait artıq mövcuddur, lakin onu bazarlara çatdırmaq mexanizmi yoxdur

Dünyanın inkişaf etmiş ölkələri iqlim dəyişikliklərinin maliyyələşdirilməsini qrant layihələri formasında edirlər. İnkişaf etmiş ölkələrin iqlim dəyişikliyi zamanı necə hərəkət etdiklərini və bu sahədə maliyyələşdirmənin nə qədər böyük olduğunu görməliyik. BMT-nin yaz sessiyasının iclasları göstərdi ki, orada resurs var. Deməli, maddi vəsait artıq mövcuddur, lakin onu bazarlara çatdırmaq mexanizmi yoxdur.

AZƏRTAC xəbər verir ki, bu fikirləri COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev "COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantı çərçivəsində təşkil edilən "İqlim dəyişikliyinə və Dayanıqlı İnkişaf Məqsədlərinə cavabımızın maliyyələşdirilməsi" mövzusunda panel müzakirələrində çıxışında deyib.

Y.Rəfiyev qeyd edib ki, sözügedən bu sahədə özəl sektorun da iştirakı çox vacibdir. "Biz təkcə dövlət vəsaitinə güvənməməliyik, çünki söhbət gedən mükafatları, milyardları təkcə dövlət vəsaitlərinin resursları hesabına ödəmək mümkün deyil. Biz mütləq özəl sektoru COP29-a cəlb etməliyik. Bir sıra ölkələrdə iki istiqamətə və potensial investorlara, həmçinin korporativ sosial məsuliyyət portfelinin bir hissəsi kimi korporativ sosial məsuliyyətə ehtiyac duyulur. Digər bir məsələ dövlətlərin ölkə platformaları kimi bəzi təşəbbüslərlə çıxış etmələri, bəzi təşəbbüslər irəli sürmələridir", - deyə nazir müavini əlavə edib.

**AZƏRTAC**
**2024, 20 iyun**